# İŞIQ

*İctimai-siyasi qəzet*

Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №1 (7472) | 15 yanvar 2020-ci il | Çərşənbə | Qiyməti 20 qəp.




## 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ümumşəhər tədbiri keçirildi



**Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tədbir iştirakçılarını salamlayaraq, Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il münasibətilə Şirvanlıları təbrik etdi, bu əlamətdar günün əhəmiyyətindən, dünya Azərbaycanlılarının birlik və həmrəyliyindən, o cümlədən ölkəmizin son illər ərzində əldə etdiyi uğurlardan söz açdı.**

Bildirdi ki, hər birimiz üçün əziz və doğma bayram olan Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyinin yaradılması məqsədilə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu əlamətdar günün təsis edilməsi həm də müxtəlif ölkələrdə yaşayan həmvətənlərimiz arasında siyasi-iqtisadi, mədəni münasibətlərin genişlənməsinə geniş imkanlar yaratmışdır. Təqdirəlayiq haldır ki, ulu öndərin müstəqil dövlətçilik konsepsiyası, milli ideologiyamızın əsas prinsipləri bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərimiz, ədət-ənənələrimiz geniş təbliğ edilir.

Regionların sosial-iqtisadi inkişafı, əhalinin rifah halının yaxşılaşması, böyük infrastruktur layihələrin reallaşdırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən söz açan İlqar Abbasov regionda və dünyada yaşayan gərginliyə, hərbi münaqişələrə, iqtisadi və siyasi kataklizmlərə baxmayaraq 2019-cu ilin respublikamız, o cümlədən Şirvan şəhərinin sosial-iqtisadi inkişafı üçün əhəmiyyətli olduğunu bildirdi.

Tədbirdə çıxış edən natiqlər Dünya Azərbaycanlılarının Həmrəylik Gününün yaranması tarixindən və onun əhəmiyyətindən, əlamətdar gün ilə bağlı ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışdılar. Son illər həyata keçirilən geniş miqyaslı, uğurlu layihələrlə şəhərin simasını tamamilə dəyişdiyi, bu gün Şirvanın müasir, böyük sənaye potensialına malik, sürətlə inkişaf edən, gündən-günə abadlaşan bir şəhər olduğu qeyd olundu.

Tədbirdə şəhərin inkişafında və abadlaşmasında xidmətləri olan idarə, müəssisə və təşkilatlar xüsusi vurğulanmış, imtiyazlı və aztəminatlı ailələrdən olanlara bayram sovqatları paylanmışdır.

Daha sonra bayram şənliyi respublikamızın və şəhərimizin tanınmış incəsənət ustalarının konsert proqramı ilə davam etdirildi.

## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhər ağsaqqalları ilə görüşdü

**Şirvan Şəhər İcra Hakimiyyətində 26 dekabr 2019-cu il tarixdə keçirilən görüşdə elm, təhsil, idman, səhiyyə və digər sahələri təmsil edən 30-a yaxın ziyalı ağsaqqal iştirak etmişdir.**



Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhər ağsaqqallarını salamlamış və vaxt ayıraraq görüşdə iştirak etdikləri üçün onlara öz təşəkkürünü bildirmişdir.

İcra Hakimiyyətinin başçısı qeyd edib ki, son illər ərzində respublikamızda abadlıq-quruculuq və yenidənqurma işlərinin sürətlənməsi, əsaslı infrastruktur layihələrin həyata keçirilməsi Şirvan şəhərindən də yan keçməmişdir. Ölkə başçısının xüsusi diqqət və qayğısı sayəsində respublikamızın bütün bölgələri kimi Şirvan şəhəri də sürətli inkişaf yolu keçmiş və şəhərin siması əvvəlki illərlə müqayisədə dəyişmişdir.

İlqar Abbasov bildirib ki, sənaye şəhəri olan Şirvan, eyni zamanda ziyalılar şəhəridir. Ziyalılarla belə görüşlərin təşkil edilməsində əsas məqsəd, cənab Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ağsaqqalların fikirlərini öyrənmək, şəhərdə olan problemlər barədə məlumat almaq, onların həlli istiqamətində təklifləri dinləməkdir.

Görüşdə iştirak edən ziyalılar şəhərin inkişafı naminə daima İcra Hakimiyyəti başçısının yanında olacaqlarını və əllərindən gələn köməkliyi əsirgəməyəcəklərini qeyd ediblər.

Görüşdə irəli sürülən təklif və qaldırılan məsələlərin müvafiq proqramlarda nəzərə alınacağı görüş iştirakçılarının diqqətinə çatdırılmışdır.



## Şirvan şəhərində məcburi köçkünlər üçün yeni yaşayış kompleksi istifadəyə verilib

**27 dekabr 2019-cu il tarixində Şirvan şəhərində məcburi köçkünlər üçün yeni yaşayış kompleksi istifadəyə verilib. Açılış mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Mahir Abbaszadə iştirak edib. Bütün zəruri sosial-texniki infrastrukturu olan yaşayış kompleksinin tikintisi "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlər çərçivəsində aparılıb.**

Dövlət Komitəsinin sədri məcburi köçkünlərlə görüş zamanı bildirib ki, məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Bu məqsədlə, inşa edilmiş qəsəbələrdə 300 mindən çox məcburi köçkün ailəsi məskunlaşıb. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınmış sayca 107-ci qəsəbədir.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu kateqoriyadan olan vətəndaşlarımıza xüsusi diqqət və qayğı göstərir, onların təhsil, səhiyyə kimi problemlərinin həllinə həssaslıqla yanaşır.

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxışında qeyd etdi ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin nəticəsində bu gün ölkəmizdə çadır şəhərciyi qalmamış, bu insanların hamısı müasir tipli qəsəbələrə köçürülmüşlər. Onların maddi rifahının yaxşılaşdırılması üçün Dövlət proqramları qəbul edilmiş, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülmüşdür.

Yeni qəsəbə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun (MKSİF) sifarişi əsasında layihələndirilib və inşa olunub. Ayrılmış 10 hektar torpaq sahəsində tikinti işlərinə 2018-ci ilin dekabr ayında başlanılıb. Yeni yaşayış kompleksində hər biri 9 mərtəbəli olmaqla 13 yaşayış binası inşa edilib. Qəsəbədəki mənzillərdən 64-ü birotaqlı, 298-i ikiotaqlı, 207-i üçotaqlı, 53-ü dördotaqlıdır. Bundan başqa, yaşayış kompleksində 540 şagird yerlik məktəb, 140 yerlik uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, ATS binası tikilmiş, o cümlədən müvafiq mühəndis kommunikasiya şəbəkələri yaradılmış, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Məcburi köçkünlərlə görüşdən sonra yaşayış məhəlləsində mənzillə təmin edilən şəhid ailəsi Füzuli rayonundan məcburi köçkün, Məmmədova Zeynəb İsrafil qızının evinə baş çəkilib. Dövlət Komitəsinin sədri burada yaradılan şəraitlə tanış olub. Yeni qəsəbəyə Şirvan şəhəri ərazisində 61 yataqxana, məktəb, kirayə və digər inzibati binalarda müvəqqəti məskunlaşmış, uzun müddətdir ən ağır şəraitdə yaşayan, əsasən, Zəngilan, Füzuli və Cəbrayıl rayonlarından olan 606 məcburi köçkün ailəsi, 1985 nəfər köçürüləcək. Boş qalan mənzillərə isə ətraf rayonlarda müvəqqəti məskunlaşmış ailələr köçürüləcək. Bu məqsədlə, qəsəbədə istifadəyə verilmiş məktəbdə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun icraçı direktoru Mahir Abbaszadə və Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Dövlət Komitəsinin müvafiq komissiyasının üzvlərinin, ictimaiyyətin və KİV nümayəndələrinin iştirakı ilə püşkatma keçirilib. Bu gündən məcburi köçkünlərin yeni qəsəbədəki evlərə köçürülməsinə başlanılacaq.

**"İŞIQ"**
**Ə.Axundov (foto)**

*9 fevral Milli Məclisə seçkilər günüdür*

# Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi barədə

## *Şirvan Şəhər İcra Hakimiyyəti başçısının Sərəncamı*

***Azərbaycan Respublikasının Konstitusiyasi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin həyata keçirilməsinə hərtərəfli şərait yaratmış, bu sahədə əsas priotitetləri müəyyən etmişdir. Onları rəhbər tutaraq ölkəmizdə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərin hüquqi bazası yaradılmışdır. Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin həyata keçirilməsinə hərtərəfli şərait yaradılmış, azad və demokratik mühit formalaşmış, siyasi və ideoloji plüralizm, söz, mətbuat, informasiya və sərbəst toplaşmaq azadlığı təşəkkül tapmış, vətəndaşlara dünya birliyi tərəfindən qəbul edilmiş ictimai və siyasi hüquqlar verilmişdir. Respublikamızda hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq qəbul edilmiş, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. 9 fevral 2020-ci il tarixə təyin edilmiş Milli Məclisə seçkilərlə əlaqədar dinc toplantıların (yığıncaq, mitinq, nümayiş) təşkil edilməsi və keçirilməsi zamanı baş verə bilən qanun pozuntularının qarşısını almaq, həmin toplantıların qanunvericiliyə uyğun keçirilməsini, bu sahədə aidiyyəti orqanların üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsini, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunun və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin müddəalarının icrasını təmin etmək məqsədilə***

### Qərara alıram:

**1.** "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanunun və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin müddəalarının icrası təmin edilsin.

**2.** "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Milli Məclisə seçkilərlə əlaqədar öz səlahiyyətləri çərçivəsində toplantılarda iştirak edən vətəndaşların siyasi mənsubiyyətinə görə təqib olunmasına yol verilməsin. Belə fakt aşkar olunduqda həmin şəxsin (şəxslərin) qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunması üçün zəruri tədbirlər görülsün.

**3.** Ayrı-seçkiliyə, ədavətə və zorakılığa çağırışlarla müşayiət olunan milli, irqi və ya dini ədavəti, müharibəni təbliğ edən toplantıların keçirilməsi qadağan edilsin.

**4.** Siyasi məqsədlərlə dinc toplantı keçirmək və təbliğat-təşviqat işləri aparmaq aşağıdakı halda qadağan edilsin:

- Milli Məclisə keçiriləcək seçkilər gününə 24 saat qalmışdan seçki günü səsvermə məntəqələri bağlananadək.

**5.** Toplantıların (yığıncaq, mitinq, nümayiş) hər hansı birini təşkil edən şəxs və ya şəxslər toplantıların forması, ümumi məqsədi, keçirilmə yeri və vaxtı, iştirakçıların təxmini sayı, təşkilatçıların adı, soyadı, atasının adı, ünvanı və əlaqə telefonları göstərilməklə toplantının keçiriləcəyi gündən azı 5 (beş) gün əvvəl Şirvan şəhər İcra Hakimiyyətinə öz imzaları ilə təsdiq edilmiş yazılı müraciət etsinlər.

**6.** Şirvan şəhərində vətəndaşların sərbəst toplaşmaq azadlığını təmin etmək məqsədilə açıq və qapalı şəraitdə keçiriləcək toplantıların və təşviqat vasitələrinin yerləşdirilməsi üçün müəyyən edilmiş ərazilərin və yerlərin dislokasiyası təsdiq edilsin. (Dislokasiya əlavə olunur).

-dinc toplantıların qapalı yerlərdə keçirilməsi üçün saat 12⁰⁰-dan 14⁰⁰-dək, açıq yerlərdə saat 11⁰⁰-dan 13⁰⁰-dək vaxt müəyyən edilsin.

**7.** Şirvan şəhər Polis şöbəsinə tapşırılsın:

-toplantının təhlükəsizliyini təmin etmək məqsədilə yığıncağın, mitinqin, nümayişin, küçə yürüşünün və ya piketin keçirilməsinə bir gün qalmış toplantı yerinə baxış keçirsin.

-toplantı zamanı ictimai asayişin qorunmasını, ictimai qaydanın bərpa edilməsini və insanların təhlükəsizliyini təmin etsin.

**8.** Sərəncamın icrasına nəzarət Şirvan şəhər İcra Hakimiyyəti Başçısının I müavini S.Abıyevə həvalə edilsin.

**9.** Sərəncam yerli "İşıq" qəzetində dərc edilsin.

**İlqar Abbasov,**
**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı**

# Şirvan şəhərində «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanuna uyğun olaraq toplantı keçirmək üçün ayrılan açıq, qapalı yerlərin və təşviqat lövhələrinin

# D i s l o k a s i y a s ı

| İHB-nın verdiyi sərən-camın tarixi | Müəyyən edilmiş yerlərin ümumi sayı | O cümlədən | | | Toplantının keçirilməsi üçün müəyyən edilmiş yerlər | | | | Təşviqat aparılması (stendlər quraşdırılması) üçün müəyyən edilmiş yerlər | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Açıq yer-lərin sayı | Qapalı yerlə-rin sayı | Təşviqat aparılma-sı üçün müəyyən edilmiş yerlərin sayı | qapalı yerdə saat $12^{00}$-dan $14^{00}$-dək | tutum | açıq yerdə saat $11^{00}$-dan $13^{00}$-dək | tutum | | |
| 30.12.2019<br>102 nömrəli | 2 | 1 | 1 | 34 | Şirvan şəhər Mədəniyyət Mərkəzi | 350 | Şirvan Olimpiya İdman Kompleksinin stadionu | 8000 | -Hacıqəhrəmanlı qəsəbə klubunun qarşısında (1№-li s/m);<br>-Yağ-piy ASC (3№-li s/m);<br>-13№-li tam orta məktəb(5№-li s/m);<br>-Mədəniyyət evinin qarşısında (7№-li s/m);<br>-Bayramlı qəsəbə 3 №-li tam orta məktəbin qarşısı (9№-li s/m.);<br>-Sürücülük məktəbi(11№-li s/m);<br>-16№-li TQİ(13№-li s/m);<br>-9№-li tam orta məktəb (15№-li s/m);<br>-10№-li tam orta məktəb(17№-li s/m):<br>-«Nərgiz» u/bağ.(19№-li s/m);<br>-18№li təbiət humanitar təmayüllü məktəb-lisey (21№-li s/m);<br>-«Şirvan OYL BMM-nin yaşayış kompleksi.(23№-li s/m);<br>-20№-li tam orta məktəb(25№-li s/m);<br>-16№-li tam orta məktəb(27№-li s/m);<br>-«Kür» mehmanxanası (29№-li s/m);<br>-18 №-li təbiət humanitar təmayüllü liseyin II korpusu (31 №-li s/m);<br>-Müdafiə Sənayesi Nazirliyi Sosial xidmətlər İdarəsinin 8 saylı MİS yataqxanası (34 N-li s/m) | - 4№-li tam orta məktəb(2№-li s/m);<br>-2№-li tam orta məktəb(4№-li s/m);<br>-14№-li tam orta məktəb(6№-li s/m);<br>-1№-li tam orta məktəb (8№-li s/m),;<br>-10 saylı s/m. inzibati binası (10№-li s/m);<br>-11№-li tam orta məktəb (12№-li s/m);<br>-Şəhər poliklinikası (14№-li s/m);<br>-«Şirvan» k/t (16№-li s/m);<br>-Müdafiə Sənayesi Nazirliyi Sosial Xidmətlər İdarəsinin 8 saylı MİS yataqxanası (18№-li s/m);<br>-Şirvan Peşə liseyi (20№-li s/m);<br>-21№-li tam orta məktəb (22№li s/m);<br>-Mərkəzi kitabxana(24№-li s/m);<br>-Uşaq Gənc.İd.Məktəbi (26№-li s/m);<br>-Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci (28№-li s/m);<br>-5 №-li orta məktəb (30№-li s/m)<br>-Uşaq Gənclər İnkişaf Mərkəzi (32 №-li s/m);<br>-5 N-li orta məktəb (33 N-li s/m) |

**İlqar ABBASOV, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı**




# 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı təsdiqlənib

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı" təsdiq edilib. Tədbirlər planı Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında 2019-cu il 13 dekabr tarixli Sərəncamına əsasən hazırlanıb.**

Plana əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar gününün Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması



ilə bağlı tədbirlər, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələr təşkil ediləcək, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar, bədii və sənədli filmlər nümayiş olunacaq. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılacaq.

Dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə müvafiq qurumlara tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar şəhidlərinin ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12oo-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

# Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhər sakinləri ilə yaşadıqları ünvanlarda görüşdü



**29 dekabr 2019-cu il tarixində, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhər İcra Hakimiyyətinin məsul işçilərinin iştirakı ilə şəhərin Bayramlı qəsəbəsində, Mirzə Ələkbər Sabir küçəsində yaşayan qəsəbə sakinləri ilə görüşərək onları narahat edən məsələləri yerində dinləmişdir.**

İcra Hakimiyyətinin başçısı sakinlərlə görüşdə qaldırılan məsələlərə və irəli sürülən təkliflərə münasibətini bildirərək sakinləri əmin etdi ki, Bayramlı qəsəbəsində abadlıq-quruculuq işlərinin uğurla davam etdirilməsi üçün lazımi imkanlardan istifadə ediləcəkdir.

Sakinlər vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sakinləri narahat edən məsələlərin qısa zaman ərzində həllini tapması üçün şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən aidiyyəti üzrə zəruri tapşırıqlar verilmişdir.

# 20 Yanvar şəhidi - Elçin



**O qanla yazılmış tarixin üzərindən 30 il ötür. Yüzlərlə dinc əhalinin şəhid olduğu 20 Yanvar gecəsində nə qədər ata-ananın əziyyətlə böyüdüb, gələcəyinə ümidlər bəslədiyi, bir-birindən gözəl, nağıl kimi xəyallar qurduğu övladları şəhid oldu. Nə qədər körpə balalar dil açıb ata-ana deməyə macal tapmamış valideynlərini itirdilər. Hansı ki böyüyəndə üzlərini, səslərini xatırlaya bilməyəcək yaşda olan körpələr. Nə qədər arzular, umidlər, xəyallar və ömürlər yarımçıq qaldı.**

20 Yanvar gecəsində gələcəyin nə qədər müəllimi, həkimi, polisi, jurnalisti, hüquqşünası olacaq gənc ömrünü vətən, torpaq yolunda qurban verdi. Arzuları yarımçıq qalan şəhidlərimizdən də biri Elçin Beydulla oğlu İmanovdur.

E.B.İmanov 1967-ci il 12 avqustda Əli Bayramli (indiki Şirvan şəhərində) dünyaya göz açmış, elə orta təhsilini də buradakı 10N-li tam orta məktəbdə almışdır. Oxuduğu məktəb bu gün adını daşıyır.

Təvazökar, zəkalı, vətənpərvər, sədaqətli və mərd gənc kimi həm sinif yoldaşları, həm müəllimləri və təbii ki ailəsi, qohumları tərəfindən sevilirdi. Elçini tanıyanlar onun haqqında yalnız xoş xatirələrin olduğunu söyləyirlər. Sinif rəhbəri Lətifə müəllim Elçin haqqında danışanda qəhər onu boğur. ..

Şəhidimiz Elçin, yaşasaydın bu gün diş həkimi olacaqdın. Çox gözəl ailən olacaqdı. Millətinə qulluq edib, onların sağlamlığının qayğısına qalacaqdın. Vətəninə, xalqına layiqli övladlar yetişdirəcəkdin. Bəlkə nəvən də olacaqdı. Onu qucağına alaraq xalqımızın qəhrəmanlıq tarixindən danışacaqdin. Adını bəlkə də Elçin qoyacaqdın. Bayramları bütün ailəylə birlikdə keçirəcəkdin. Amma sən bunları seçmədin. Bütün bu gözəl günləri, xoşbəxt anları vətənin azadlığı, xalqın rifahı, müstəqil yaşaması üçün qurban verdin.

İllərlə xəyalını qurduğun arzularını, ata-ananı, qardaşını, doğmalarını bir anlığa unudub gözünü qırpmadan şəhidlik zirvəsinə ucaldın. Şəhid oldun ki, bu gün onlar azad Vətən torpağında yaşasın. Bizlər müstəqil ölkənin azad vətəndaşı olaq. Doğmalarını, arzularını, gələcəyini, şirin canını vətən, torpaq üçün tərk etdin. Onu bil ki, Şəhidimiz, sən cismən köçdün bu dünyadan. Ayaqların doğma torpağın üzərindən üzülsə də bizi ana vətənin səmalarından görə bilirsən.

Bu gün hər bir azərbaycanlı üçün çox hüzünlü, hüzünlü olduğu qədər də çox qürurlu bir gündür. Bu gün Azərbaycan xalqının silahsız, əliyalın, dinc əhalisinin qəhrəmanlıq tarixinin yeni səhifəsini qanlari ilə yazdığı gündür. Haqqınız ödənməzdir, Ey Cənnət sakinləri. O gecə qışın soyuq qarını, şaxtasını sizlərin isti qanı əritdi.

"Şəhidlər ölməzdir" . Bu ifadə çox düzgün islədilib. Bu millət, bu xalq var olduqca, sizlər də var olacaqsız, ey xalqın qəhrəman övladları. Sizin kimi mərd, cəsur övladları olan bir xalq heç bir zaman heç bir düşmən qarşısında məğlub olmaz.

Müstəqillik, azadlıq asan qazanılan nemət deyil. Azadlıq əldə etmək üçün qanlar axıdılır, qurbanlar verilir. Bizlər qarşınızda hər zaman qürurla və fəxrlə baş əyirik. Ruhunuz şad olsun, Cənnət sakinləri...

**Aidə Cənnətqizi**

*Yox sən ölməmisən, sən yaşayırsan!*
*Mən Nəbi, Koroğlu deyirəm sana,*
*Sən hər bir Qarabağ şəhidləri tək*
*Şərəfsən, şöhrətsən Azərbaycana!*

Bu şeir şair-publisist Sabir Arazlı Özgünün Şirvan şəhər sakini, Milli Qəhrəman Tahir Əminağa oğlu Bağırov haqqında yazdığı «Göydəmir kəhərin kişnərtisi» adlı kitabından götürülmüşdür. Tahir Bağırov haqqında müxtəlif qəzet və jurnallarda yazılara çox rast gəlsəm də, bu kitab haqqında məlumatım yox idi. Onu birnəfəsə oxuyub qurtardıqdan sonra şəhid qəhrəmanımız haqqında bilgilərim birə yüz artdı.

Tahir Əminağa oğlu Bağırov 14 iyul 1957-ci ildə Türkmənistan SSR-in Krasnovodsk şəhərində dünyaya göz açıb. Elə burada da 8-ci sinfi qurtarır. 1972-ci ildə valideynləri Şirvan şəhərinə köçməli olur. Gənc Tahir orta təhsilini 10 nömrəli tam orta məktəbdə başa vurduqdan sonra sürücülük ixtisasına yiyələnir. Hərbi xidmətini Əfqanıstanda başa vurub Şirvan şəhərinə qayıdır. Hərbi xidmətdə snayper-sürücü, daha sonra atıcı tağımının komandiri olub. Müharibənin ağrı-acısını da burada görüb...

Hərbi xidməti başa vurub Şirvana döndü. Valideynlərinin xeyir-duasını alıb Bakıya gəlir. Burada İstilik Stansiyasının Elektrik Mərkəzinin nəqliyyat sexində sürücü kimi işə başlayır. Vətən təhlükədə olanda könüllü olaraq Milli Ordu sıralarına yazılır. 1992-ci ilin yanvar ayından Zabratdan ilk hərbi vertolyot eskadrilyasında fəaliyyətə başlayıb xeyli təcrübə toplamış, daha sonra «N» saylı hərbi hissədə hərbi vertolyot eskadriyasında bort atıcı kimi çalışmışdır. Onun xidmət etdiyi «Mİ-24» hərbi vertolyotunun heyəti 3 igiddən ibarət idi. Zakir Yusifov, Rauf Quliyev və Tahir Bağırov. Zakir komandir, Rauf operator, Tahir isə bort-atıcı idi. Onların qəhrəmanlıqlarını saymaqla qurtarmaq olmaz. AR-sı Müdafiə Nazirliyinin verdiyi arayışda deyilir: «N» saylı hərbi hissənin ekipajı Zakir Yusifov, Rauf Quliyev və Tahir Bağırovdan ibarət olan «Mİ-24» vertolyotunun 1992-ci il sentyabrın sonu, oktyabrın əvvəllərində Qarabağın qaynar nöqtələrində etdiyi uçuşlar barədə məlumat.

## Milli Qəhrəmanlarımız

# ARZULARI BÖYÜK İDİ



25.09.1992.Xocavənd rayonu, 2 uçuş-dzot, düşmənin canlı qüvvəsinin məhvi.

26.09.1992. Fərrux kəndi, 1 uçuş- 3 dzot, düşmənin canlı qüvvəsinin məhvi.

26.09.1992-Laçın rayonu, Surası kəndi, 1 uçuş - 2 dzot, 1 artilleriya qurğusunun məhvi.

29.09.1992. Laçın rayonunun Səfiyan kəndi, 1 uçuş, düşmənin canlı qüvvəsinin məhvi.

02.10.1992. Xocavənd rayonu. 3 uçuş-dzot, 1 artilleriya qurğusunun məhvi.

08.10.1992. Xocavənd rayonu, 3 uçuş-1 tank, dzot, düşmənin canlı qüvvəsinin məhvi.

09.10.1992. Laçın rayonu, 2 uçuş-1BMP, düşmənnin canlı qüvvəsinin məhvi.

11.10.1992. Laçın rayonunun Səfiyan kəndi. Uğurlu döyüşdən sonra «Mİ-24» vertolyotunun quyruq hissəsindən hidrosistemin zədələnməsi nəticəsində onun xilası mümkün olmamışdır. Qubadlının Muradxanlı kəndi yaxınlığında qəzaya uğramışdır. Ekipajın hər üç üzvü şəhid olmuşdur.

Tahir Bağırov haqqında yazı hazırlayarkən onun vaxtı ilə yaşadığı ünvana yollanıb ailə üzvləri ilə maraqlanmaq istədim. Onunu əmisi-eyni zamanda qonşusu Səxavət kişi mənimlə həmsöhbət oldu. Bildirdi ki, anası Teyyubə, həyat yoldaşı Hacı Leyla, oğlanları Arif və Tahir (anası nəvəsinə oğlu Tahirin adını qoyub) Bakıdakı evlərinə gediblər. Həm orada həm də burada yaşayırlar. Onlar burada olmayanda evə özüm nəzarət edirəm.

Tahir haqqında soruşanda yanayana danışdı. Dedi ki, od parçasıydı. Vaxtı ilə tanınmış karate ustası Alim Əkbərovun rəhbərliyi altında idmanın bu növü ilə də məşğul olub. Hərbi sahəyə çox həvəsi var idi. Böyük arzularla yaşayırdı. Uşaq olanda (5-6-cı sinifdə oxuyarkən) deyərdi ki, böyüyəndə «Mixaylo» - Mehdi Hüseynzadə kimi qəhrəman olacağam. Arzusu çin çıxdı. Tahir Azərbaycanın Milli Qəhrəmanı oldu... Beləcə müsahibim kövrəlir, danışa bilmir.

Tahir Bağırov kimi qəhrəmanlar heç vaxt unudulmurlar. Vətən yolunda şəhid olanların yeri tanrı dərgahındadır. Onlar ən uca zirvəyə yüksəlmişlər, ölməzdirlər. Dövlətimiz tərəfindən də adları əbədiləşdirilir. Tahirin qəbri Bakıdakı «Şəhidlər xiyabanı»ndadır. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin fərmanıyla ona «Milli Qəhrəman» fəxri adı verilmişdir. Bakının Xətai rayonundakı 59 saylı, Şirvan şəhərindəki 11 saylı orta məktəblərinə adı verilmiş, büstü qoyulmuşdur. Bakının Suraxanı rayonunda və Şirvan şəhərində adını daşıyan küçə də vardır.

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdir:

«Vətənin müdafiəsində iştirak etmiş, qəhrəmanlıq, şücaət göstərmiş insanlara, şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara diqqət və qayğı göstərmək dövlətimizin ən ümdə vəzifələrindən biridir».

Doğrudan da biz bunun hər bir yerdə canlı şahidi oluruq. Milli Qəhrəman Tahir Bağırovun xatirəsi unudulmur, ailəsi hər cür qayğı ilə əhatə olunmuşdur.

**Musaxan HEYDƏRLİ,**
**AJB-nin üzvü**

# Yanvar ayında vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar və ödənilməli vergilər

Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən 2019-cu ilin 4-cü rübü üzrə hesablanmış cari ödəmələr 2020-ci ilin yanvar ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

2019-cu ilin dekabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları

- Əlavə dəyər vergisinin bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisinin bəyannaməsi,
- Mədən vergisinin bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi

2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- 2019-cu ilin 4-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları Sadələşdirilmiş verginin bəyannaməsi (1 nömrəli Əlavə ilə, zərurət olduqda 2 və 3 nömrəli Əlavələr ilə birlikdə) 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- 2019-cu ilin 4-cü rübünə görə vergi ödəyiciləri tərəfindən Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- Xüsusi notariuslar gəlir vergisi bəyannaməsini

2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim etməli və 2019-cu ilin dekabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- Dövlət rüsumunun tutulması barədə hesabat

2020-ci ilin yanvar ayının 21-dək vergi orqanına təqdim edilməli, notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülməlidir.

2019-cu ilin 4-cü rübünə görə sığortaedənlər tərəfindən

- Məcburi dövlət sosial sığortası üzrə rüblük hesabat
- İşsizlik sığortası üzrə rüblük hesabat
- 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməli
- 2019-cu ilin dekabr ayı üzrə hesablanmış sığorta haqları isə 2020-ci ilin yanvar ayının 15-dən gec olmayaraq tam həcmdə nağsız formada dövlət büdcəsinə ödənilməlidir.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

- ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən 2020-ci ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2019-cu ilin dekabr ayı üzrə hesablanmış vergi 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- Digər vergi ödəyiciləri tərəfindən (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) 2020-ci ilin yanvar ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2019-cu ilin dekabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

Qeyd: 20.01.2020-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim edilməsinin son müddəti 21.01.2020-ci il tarixə keçirilmişdir.

***5 saylı Ərazi Vergilər İdarəsi***

**Bir insan mübarizə aparmağı, həyatda qalmağı, daha doğrusu yaşamağı nə vaxt öyrənir? Bu bəşər övladının cinsiyyətinə görə dəyişir. Doğulduğu andan ölənə qədər həyatla mübarizə aparan varlıq qadındır. Tibbin inkişafı bu mubarizənin vaxtını qadınlar üçün daha da tezləsdirib. Hətta doğulmadan öncə qız uşaqları bu amansız, amansız olduğu qədər də şirin olan həyata gəlmək üçün çarpışır. Çox təəssüflər olsun ki, bəzən bu döyüşdən məğlub çıxırlar. Bir insan fiziologiyası formalaşmadan eləcə ana bətnində yaşamına son verilir.**

# Qadın həyatın yarısıdır...

Hər kəs məişət zorakılığı ilə üzləşə bilər, lakin bəzi ölkələrdə məişət zorakılığından daha çox qadınlar və qız uşaqları əziyyət çəkir. Doğulduğu andan bəzi qız uşaqları bu zorakılığın qurbanı seçilir. Bir qız atasanası üçün övlad deyil, yük sayılır.

Qadınların məişətdə qarşılaşdığı zorakılıq həm ləyaqətin alçaldılması, həm də gender bərabərsizliyi problemidir. Bəzən məhz qadın olduğuna, kişi ilə bərabər hüquqlu sayılmadığına görə döyülən, psixoloji təsirə məruz qalan, sosial-iqtisadi,siyasi hüquqları pozulan, hətta həyatını itirən qadınların sayı bu problemin olduqca ciddi olduğunu göstərir.

Bəzən uşaq ikən oğlanlara verilən azadlıqlardan qızlar məhrum olurlar. Bir ailədə qız və oğlanlar arasında fərqlər qoyulur. Bir qızın uşaqlıq aləmi, uşaq dünyası əlindən alınır. Baxmayaraq ki, XXI əsrdə yaşayırıq, fəqət hələ də qız uşaqlarına oyuncaqlar əvəzinə bulaşıq qablar, çirkli paltarlar verilir. Kitab oxumaq, dərslərini həll etmək əvəzinə ev işləri, yemək hazırlamağı öyrədirlər. Bir qızın barmaq aralarını qələm əzərək agrıtmır, kartof soyaraq kəsdiyi barmaqlarını paltar, ev yuyarkən kəsilmiş yaralara dolan çirkli suların ağrısı incidir. Ancaq ən böyük acını uşaqlığı, arzuları əlindən alınan ürəyi hiss edir. Nə qədər gülümsəməyə, xoşbəxt olmağa çalışsa da ürəkdə açılan yara sağalmır. Ən pisi isə belə yaranı daha çox valideynlər açır. Beləcə gələcək üçün dəyərsizləşdirilmis qadın modeli yaradılır.

Əlbəttə qız uşağının ev işlərini öyrənilməsinin əleyhinə olmamalıyıq. Amma oğlanın bu işlərdə anaya, bacıya, həyat yoldaşına kömək etməsi də məqsədə uyğundur.

Fikirlərini, düşüncələrini dilə gətirməyə çalışarkən: " Sən sus, qızsan, sakit dur. Sən nə vaxtdan qərar verməyə başlamısan? Atan nə deyir, o olacaq. Oxuma deyirsə, oxumayacaqsan. Qardaşın nə deyir o olacaq. Bunu geyinmə, bura getmə deyirsə, onu da edəcəksən. Yoldaşın sənə nə deyir, onu da elə və sair... Nəticədə bir qadın həyatın bütün mərhələlərində zorakılığa məruz qalır. Ən pisi isə bütün bunların qarşısından susmaq öyrədilir. Xüsusən də analar tərəfindən.

Bu gün dünyanın hər yerində nə qədər gəncliyi, məsumluğu əlindən alınan, hər cür isgəncələrə, istər fiziki, istərsə də psixoloji təsirə məruz qalan, övlad həsrətinə məhkum edilən, başqalarından asılı vəziyyətə salınan qadınlar var. Amma bir çoxları hələ də susmağı secir, ya da ki susmağa məcbur edilir.

Təbii ki, kişi ilə qadın arasında fərq var. Amma bu bir qadının hüquqlarının əlindən alınması, şəxsiyyətinin alçaldılması demək deyildir. Bir qadın da bir kişinin sahib olduğu hüquqlara malikdir. Qadının da azad düşünmək, fikirlərini ifadə edə bilmək, qərar vermək, oxumaq, işləmək, seçim etmək kimi hüquqları var. Heç kim bu hüquqları onun əlindən almamalıdır.

Təəssüflər olsun ki, gender bərabərsizliyi qadını kimlərinsə asılılığında olan nəfəs alan canlıya çevirmişdir. Əks cinsin bəzisinin qadın haqqında düşüncəsi:"Qadın hər zaman kişidən asılı olmalıdır, onun fikirləri önəmli deyil, qadının işi yalnız və yalniz evində oturub ailə üzvlərinə qulluq etməkdir." Bir növ robot kimi. Fərq yalnız qadının nəfəs ala bilməsidir.

Qadına qarşı törədilən məişət zorakılığının ən acı tərəfi isə günahlandırılacaq deyə susmasıdır. Axı, nə üçün həm məzlum, həm də günahkar qadın olmalıdır? Nə üçün bir qadın əri tərəfindən döyülsə də, şəxsiyyəti alcaldılsa da səsini çıxarmır. Bədənindəki göyərmələri örtməklə, göz yaşını qurutmaqla, cəhənnəmdən heç də fərqi olmayan bir evdə yaşamağı seçir? Çünki hər kəs onu günahlandıracaq və "Yaxşı at özünə qamçı vurdurmaz" deyəcək.

Bu zorakılığın qarşısını almaq üçün həm hüquq-mühafizə orqanları, həm də beynəlxalq təşkilatlar əlindən gələni əsirgəmir. Açığını deyim ki, yaşadığım Şirvan şəhərində gender bərabərliyinə xüsusi diqqət yetirilir. Məktəbli qızların valideynlərinin tələbi ilə erkən nikaha daxil olmalarının qarşısı kəskin alınır. Şəhər rəhbərliyi, hüquqmühafizə orqanları bu məsələdə ardıcıl maarifləndirici tədbirlərdəyirmi masalar, söhbətlər, görüşlər keçirir. Həmin tədbirlərə məktəbli qızlarla yanaşı valideyinləri də dəvət olunurlar. Şəhər Qadınlar şurası da bu sahədə öncüllər sırasında gedir.

Bir maraqlı faktı da xüsusi qeyd etmək istəyirəm. Şirvan şəhərində işgüzar, savadlı qadınlar vəzifələrə irəli çəkilirlər. 2019-cu ilin dekabrın 23-də keçirilən şəhər Bələdiyyə seçkilərinə irəli sürülən namizədlərin 30 nəfəri kişidirsə, 35 nəfəri qadınlardır.

Şirvan şəhərinin Hacıqəhrəmalı qəsəbəsində Bələdiyyə üzvülüyünə irəli sürülən namizədləriin 10 nəfəri qadındır. Halbuki ötən Bələdiyyə seçkilərində bu rəqəm az idi.

Səhiyyə, mədəniyyət, təhsil sahələrində çalışan qadınlarımız rəğbətləndirirlir, yeri gəldikdə rəhbər vəzifələrinə irəli çəkilirlər. Əksər məktəblərimizə zərif cinsin nümayəndələri rəhbərlik edirlər. Uşaq bağçası- körpələr evinin müdirləri də qadınlardır. Hüquq -mühafizə orqanlarında çalışan qadınlarımız var.

Şirvan şəhərində təhsilə də maraq ildən-ilə artır. Marağın, gərgin səyin, qayğı və diqqətin nəticəsidir ki, tələbə adı qazanana gənclərimiz hər il bizləri fərəhləndirirlər. 2018-2019-cu tədris ilinin məzunlarından 314 nəfəri tələbə olmuşdur. Sevindirici haldır ki, onların 75 %-ni qızlarımız təşkil edir. Onlar təkcə respublikamızda deyil, xarici ölkələrin nüfuzlu təhsil ocaqlarında oxuyurlar.

Son illərdə şəhərimizdə sahibkar xanımların da fəaliyyət göstərdiklərinin şahidiyik.

Lakin bütün bunlar o demək deyil ki, bizdə bu məsələ tam qaydasındadır. Məişət zorakılığının qarşısını almaq öncəliklə ailədən başlamalıdır. Unutmayaq ki, bir zalım da, bir məzlum da ailədə böyüyür, formalaşır. Odur ki bir qız övladına qorxmağı, utanmagı, susmağı deyil, özünə güvənməyi, azad düşünməyi, fikirlərini dilə gətirib müstəqil qərar vermək bacarığını öyrədək. Bunun əksini edərək nə özümüzü, nə də gələcək nəsli bədbəxt etməyək. Oğul övladlarımıza da hər kəsin bərabər hüquqa malik olduğunu, qadına hörmət və sevgini öyrədək.

Bir ailədə qadın özgüvənli, təhsilli, azad fikirli, düşüncələrini dilə gətirməyi bacaran birisə, o ailənin təməli çox güclü olar. Belə mühitdə yetişən uşaqlar da sağlam düşüncəli, vətənə, millətə layiq bir övlad kimi böyüyəcəkdir.

Qadın gözəllikdir, saflıqdır, təmizlikdir, sevgidir. Qadın həyatın yarısıdır. Bu sevgidən məhrum olmayın ki, həyatınız da yarımçıq qalmasın.

**Aidə Abbasova (Cənnətqizi)**

# TÜTÜNÇƏKMƏNİ NECƏ TƏRGİTMƏK OLAR?

**Tütünçəkən insanlar bu zərərli vərdişi nə qədər tez tərgitsələr o qədər də öz sağlamlıqlarını tütünün zərərli təsirlərindən vaxtında qorumuş olarlar.**

Tütünçəkənlərin əksəriyyəti tütünçəkmədən həzz almadıqlarını və bu zərərli vərdişdən əl çəkməyə hazır olduqlarını, lakin «iradələrinin çatmadığını» bildirirlər. Əslində isə bunun səbəbi məqsədin olmamasıdır. Bu onunla sübut olunur ki, tütünün ağır fəsadları ilə (miokard infaktı, beyin iflici, xərçəng əlamətləri) həkimə müraciət edən şəxslərin 99%-i tütün çəkməni dərhal unudurlar. Məlumdur ki, tütünçəkənlərin 70%-i bu zərərli vərdişi asanlıqla tərgidə bilər. Əgər siqareti birinci dəfədən tərgidə bilmək mümkün olmasa bunu bir daha, bir daha təcrübədən keçirmək lazımdır. Nəhayət məqsədə nail olunacaqdır.



Tütünçəkməni dayandırmaq həm tütünçəkənlərin, həm də ətrafdakıların sağlamlığının mühafizəsi üçün ən düzgün qərardır. Tütünçəkməni dayandırmağa hazır olmaq üçün tütünçəkənlərdə iki fikir tam inamlı olmalıdır.

1.Tütünçəkmənin dayandırılması mənim üçün vacibdir və mən tütünçəkməyən insan olmalıyam.

2. Mənim tütünçəkməni dayandırmaq üçün şansım vardır.

Tütünçəkməni dayandırmaq üçün hazır olmayan insanlar bunları yaddan çıxarmamalıdırlar.

-Tütünçəkmə sizin üçün və ətrafdakılar üçün təhlükəlidir. Tütünçəkmə çoxlu ölümsacan, zəiflədici, eybəcərləşdirici xəstəliklərin inkişafına rəvac verən əsas risk faktorlarından biridir.

-Tütünçəkməni dayandırmaq sağlamlıq üçün vacibdir və digər üstünlükləri təmin edir. Tütünçəkməni dayandırmaq heç vaxt gec deyil.

Çox insanlar tütünçəkməni dayandırmağa müvəffəq olmuşdur. Tütünçəkməyən insanların tütünçəkənlərdən çox olduğu ölkələrin sayı artmaqdadır və həmin ölkələrdə tütünçəkənlərin 70%-dən çoxu tütünçəkməni hər hansı bir əlavə kömək olmadan dayandırmışlar.

Tütünçəkənlərin müəyyən hissəsi üçün tütünçəkməni dayandırmaq çətin olur, lakin faktiki göstəricilərə əsaslanan köməkliyə istinad olunmaqla tütünçəkmədən yaxa qurtarmaq şansları getdikcə artır.

Tütünçəkməni dayandırmaq heç vaxt gec deyil.

Tütünçəkənlər bilməlidirlər ki, son siqaretdən:

-8 saat sonra qanda oksigenin həcmi artır və ürəyin fəaliyyəti normallaşır.

-24 saat sonra zəhərli maddə olan dəm qazı orqanizmdən xaric olur və ağciyərlərdəki bəlğəm azalır.

-48 saat sonra nikotin orqanizmdə olmur. Dad və qoxu hiss etmə qabiliyyəti normallaşır.

-72 saat sonra tənəffüs yolları tüstüdən tam təmizlənir, nəfəs almaq asanlaşır.

-2-12 həftə sonra qan dövranı bütün bədəndə bərpa olunur. Yerimək asanlaşır.

-3-9 ay sonra öskürək, təngnəfəslik aradan qalxır.

-5-10 il sonra infarkt riski heç siqaret çəkməyənlə eyni səviyyəyə enir.

Ağciyər xərçənginə tutulma riski azalır.

**M.SÜLEYMANOV,**
**Şirvan şəhər GEM-nin direktoru**

**Qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən, insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr baş verir. Bu cür fövqəladə halların baş verməməsi üçün aşağıdakı təhlükəsizlik qaydalarına əməl etmək vacibdir:**

# QAZDAN İSTİFADƏ EDƏRKƏN TƏHLÜKƏSİZLİK QAYDALARINA RİAYƏT EDİN!

-Yanğın, partlayış və dəm qazından zəhərlənmə kimi fövqəladə halların baş verməməsi üçün obyektlərdə və yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır!

-Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir!

-Müəyyən məqsədlər üçün qaz cihazlarından qurğu və aqreqatların , hissələrin çıxarılmasına yol vermək olmaz. Qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri yalnız qaz təsərrüfatı müəssisəsi tərəfindən həyata keçirilməlidir!

-Mənzildə adam olmayanda içəri daxil olarkən qazın sızmasına tam əmin olmamış işığı yandırmaq, elektrik cihazlarını işə salmaq, siqaret çəkmək, açıq alovdan istifadə etmək olmaz!

-Qış mövsümü başlanmazdan əvvəl mütəxəssislər tərəfindən sobalara baxış keçirməli, bütün sobaların tüstü bacaları təmizlənməlidir!

-Qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, uşaqlara, xəstələrə etibar edib evdən çıxmaq olmaz!

-Qaz cihazlarına qazın nəql edilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır!

-Qaz kəmərlərindən və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq alovdan istifadə etmək olmaz. Bundan ötrü yalnız sabun məhlulundan istifadə edilməldir!

-Qaz cihazlarından istifadə edərkən pəncərənin nəfəsliyi açıq vəziyyətdə olmalıdır. Mənzili tərk edərkən qaz cihazları mütləq söndürülməli, qaz borularının ventilləri bağlanmalıdır!

-İşlək qaz cihazlarını nəzarətsiz qoymaq, sobaların həddindən artıq qızmasına yol vermək olmaz!

-Mətbəxdə məişət qaz sobalarının üzərinə qoyulmuş qazanda, çaydanda suyun səviyyəsi elə olmalıdır ki, su qaynayanda daşmasın. Belə ki, qaynayan su daşıb odluğu söndürə bilər. Bu isə qaz sızması ilə nəticələnər və partlayış baş verər!

-Vanna otağında nəfəslik, təbii işıq mənbəyi, ventilyasiya kanalı olmalıdır. Qapı bayır tərəfə açılmalı və qapının aşağısında hava daxil olması üçün dəliklər olmalıdır!

-Qaz cihazları olan otaqlarda tezalışan məhsulların yerləşdirilməsi və saxlanılması qadağandır!

-Mətbəxdə, mənzildə vanna otağında, pilləkən qəfəsində, zirzəmidə qaz iyi hiss etdikdə açıq alovdan, elektrik cihazlarından istifadə etməməli, dərhal 104 nömrəli telefonla qaz idarələrinin Qəza Xidmətinə xəbər verilməlidir!

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti***

## ETIBARSIZDIR

Balakişiyev Nadir Qara oğluna məxsus «Qala» kooperativinin möhür və ştampı itdiyi üçün etibarsız sayılır.

Mərhum Əzizov Fərrux Əliheydər oğluna məxsus (Şirvan şəhəri, İ.Qayıbov küçəsi ev 9, mənzil 4) mənzilin qeydiyyat vəsiqəsi və 2 nömrəli reyestri itdiyi üçün etibarsız sayılır.

Şəkərov İlham Niftalı oğluna məxsus "Qarabağ müharibəsi veteranı" vəsiqəsi (seriya № 003938) itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhər sakini Əliyev Telman Qurban oğluna məxsus mənzilə (Şirvan şəhəri, keçmiş A.Əhmədov 6B/10, indiki L.t.İbrahimov küçəsi bina 20, ev 10) 02.09.1993-cü ildə verilmiş 6-143№-li qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mərhum İmanov Zakir Balakişi oğluna məxsus mənzilin (Şirvan şəhəri Fizuli küçəsi 47) 1311006420 qeydiyyat nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız: Baş redaktor: 6-35-60 Redaktor müavini: 6-31-35 E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız: Şirvan şəhəri, İ.İ.Qayıbov küçəsi 16, Şəhadətnamə №161 İndeks: 66858 Tiraj: 650